UOT 3.327

ORXAN MUSA
Azərbaycan Turizm və Menecment Universiteti
"Beynəlxalq münasibətlər" kafedrasının doktorantı
ORCİD İD: 0000-0002-3947-5594
O.musa@atmu.edu.az

AZƏRBAYCAN RESPUBLİKASI – İTALİYA RESPUBLİKASI: PARLAMENTLƏRARASI ƏLAQƏLƏR – MARAQLAR, TƏCRÜBƏ, NƏTİCƏ

Məqalədə Azərbaycan Respublikasının İtaliya Respublikası ilə parlamentlərarası əlaqələrinin bir sıra problemləri tədqiq olunur. Elmi araşdırma: iki dövlətin parlamentləri arasındakı əlaqələrin zəruriliyini şərtləndirən amillərin, beynəlxalq və regional təşkilatların parlament assambleyalarındakı əməkdaşlığın, müvafiq daimi komissiyaların (komitələrin) və işçi, dostluq qruplarının uzlaşdırılmış fəaliyyətinin təhlilini, ümumiləşdirilməsini əhatə edir. Tədqiqatın nəticəsində gəlinən qənaətlər də işdə öz ifadəsini tapmışdır.

Açar sözlər: Azərbaycan, İtaliya, Milli Məclis, Senat, Deputatlar Palatası, H.Əliyev, İ.Əliyev, O.Əsədov, M.Kasellati, parlamentlərarası əlaqələr, işçi – dostluq qrupları, təcrübə, nəticə.

Giriş. Azərbaycan Respublikası (AR) ilə İtaliya Respublikası (İR) arasındakı çoxşahəli münasibətlərin möhkəmlənməsi və genişlənməsində parlamentlərarası əlaqələr də önəmli potensiala və fəaliyyət imkanlarına malikdir. Parlamentlərin əlaqələri və əməkdaşlığı, əsasən, aşağıdakı yönlərdə qurulmuşdur:

1.Qanunverici hakimiyyətin başçılarının və digər rəhbər vəzifəli şəxslərin qarşılıqlı səfərləri və onların çərçivəsində görüşlər, danışıqlar təcrübəsi (5; 14, s.2).

2. Respublikaların qanunverici hakimiyyətlərinin ali orqanlarının, yəni Azərbaycan Milli Məclisinin (MM-in), İtaliya Senatı ilə Deputatlar Palatasının əlaqədar daimi komitələrinin (komissiyalarının) və parlamentlərarası işçi, dostluq qruplarının birgə, uzlaşdırılmış fəaliyyəti (3; 4; 7).

3.Beynəlxalq və regional təşkilatlarda, xüsusilə də onların parlament assambleyalarında faydalı işbirliyi.

Qarşılıqlı səfərlər çərçivəsində əməkdaşlıq təcrübəsi, onların gedişində keçirilən görüşlər və aparılan müzakirələrlə bağlı bu kimi işlərə (tədbirlərə) diqqət ayrıla bilər. Buna görə də onların bəzilərindən burada qısaca bəhs etməkdə fayda vardır.

2004-cü ilin oktyabrında AR Milli Məclisi sədrinin müavini G.Baxşəliyeva və deputat, görkəmli aktrisa A.Pənahova İtaliyaya səfər etdilər (5). Bu səfər İR Deputatlar Palatasının ərsəyə gətirdiyi dünya qadın parlamentarilərinin konfransında iştirakla əlaqədar idi.

Səfər ərzində deputatlarımız palatanın sədri P.Kazini, Senatın Xarici Əlaqələr daimi komissiyasının başçısı və onun müavini, senatorlar F.Proveza və F.Danielli ilə görüşlər keçirdilər.

AR MM-in sədri O.Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyətinin 2010-cu ilin mayında dost ölkəyə səfəri qarşılıqlı əlaqələri daha da fəallaşdırdı və işbirliyini gücləndirdi. Həmin səfər (14, s.2):

• Deputatlar Palatasının sədri C.Fininin rəsmi dəvəti əsasında edildi;

• O.Əsədovun C.Fini, Senatın sədrinin müavini V.Kiti və İtaliya parlamentininin Azərbaycanın Dostları Assosiasiyasının üzvləri ilə görüşünə bir vəsilə oldu. (Sözgəlişi, həmin assosiasiya 2010-cu ilin əvvəlində yaradılıb və ilk başçısı da xanım R.Boldi idi) (5);

• İR-in Ermənistan – Azərbaycan münaqişəsinin həllinə dair ədalətli və rasional mövqeyini bir daha təkrarlaması baxımından da olduqca təqdirolunasıdır. Bu dəyərləndirməni O.Əsədovla C.Fininin görüşündə ikincinin səsləndirdiyi belə bir diqqətçəkici mövqe də kifayət qədər təsdiqləyir: "Azərbaycan ikiqat haqsızlıqla üz-üzə qalıb. Həm torpaqları işğal olunub, həm də beynəlxalq birlik problemin ədalətli həllinə dəstək vermir" (14, s.2). Bu, qiymətli yanaşma və fikri sayılan

dövlətlərdən olan İtaliyanın yüksək vəzifəli şəxslərindən birinin beynəlxalq aləmə çağırışı – müraciəti təki dəyərləndirilən mövqelərin də nəzərə alınması lazımdır.

Burada İR-in AR qarşısındakı belə bir tarixi xidmətini də daima vurğulamaq gərəkir. Belə ki, o, Ermənistanın 30 illik işğalı, Azərbaycanın 44 günlük zəfərli savaşı və ondan sonrakı dönəmlərdə AR-in ərazi bütövlüyünü birmənalı dəstəkləmişdir. (Sözgəlişi, bu xəttə və mövqeyə yenə də sədaqətlidir və davam etməkdədir). Hələ bu səfərdən öncə (2010-cu il fevralın 16-da) Senatın plenar sessiyasında "Güney Qafqazda vəziyyət" başlıqlı 217 saylı qətnamə müzakirəyə çıxarılmış və təsdiqlənmişdi (5; 14, s.2).

Müəllifi R.Boldi olan bu diplomatik sənəd:

• Ermənistan – Azərbaycan münaqişəsinin regionun inkişafına törətdiyi əngəlləri və onun sülhlə həllinin Avropa üçün də önəmini vurğulayırdı;

• dövlət sərhədlərinin dəyişdirilməsinin yalnız uzlaşdırılmış qarşılıqlı razılıq əsasında mümkünlüyü və ərazi bütövlüyü prinsiplərini önə çəkirdi;

• Senatın hökümətə beynəlxalq və regional təşkilatların münaqişənin dinc yolla nizamlanmasına dair bütün qətnamə və qərarlarının tamamilə yerinə yetirilməsinə təsir göstərilməsini tapşırmasını açıqlayırdı;

• nümayəndə heyətimiz tərəfindən məmnunluqla və razılıqla qarşılandı;

• beynəlxalq birlik: ayrı-ayrı təşkilatlar və dövlətlər üçün nümunəvi siyasi sənəd, diplomatik akt kimi də dəyərləndirilə bilər.

Bu arada, yəni 2011-ci ilin iyun ayında AR MM-in Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədri S.Seyidov və Azərbaycan – İtaliya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri A.Kərimli İtaliyaya işgüzar səfər etdilər. Səfər parlamentlərin əlaqələrinin daha da sıxlaşdırılması cəhətdən qiymətli sayıla bilər. Həmin ilin dekabrında AR deputatlarının və digər rəsmilərinin böyük bir qrupu İtaliyada səfərdə oldu (9). Bu səfər İR Senatında "İtaliya – Azərbaycan münasibətlərinin 20 illiyi" mövzusundakı konfransda iştirakla əlaqədar olaraq düzənlənmişdi.

2018-ci ilin iyununda Azərbaycan – İtaliya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri A.Kərimli dost dövlətdə səfərdə oldu. Səfərdə əsas niyyət parlamentin yeni rəhbərliyi ilə görüşmək və İtaliya parlamentindəki Azərbaycanın Dostları Assosiasiyasının tərkibinin yenidən formalaşıdırlması ilə bağlı müzakirələr aparmaqdan ibarət idi. Bunlarla əlaqədar olaraq da Senatın sədri xanım M.Kasellati, senator V.Petroçelli və b. lazımi, xeyirli söhbətlər edildi.

Azərbaycan parlamentarilərinin daha bir təmsilçiliyi O.Əsədovun başçılığı ilə 2019-cu ilin may ayında İtaliyaya rəsmi səfərə getdi (5). Onun gedişində Deputatlar Palatasının və Senatın sədrləri (R.Fiko, xanım M.Kasellati), habelə İtaliya parlamentindəki Azərbaycanın Dostları Assosiasiyasının üzvləri ilə görüşlər keçirildi.

2021-ci ilin mayında AR MM-in yeni sədri S.Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyada rəsmi səfərdə oldu (3). Bu müddətdə sədr və nümayəndə heyəti İtaliya – Azərbaycan dostluq qrupunun və İtaliya – Azərbaycan Dostluq Assosiasiyasının üzvləri ilə müzakirələr apardılar. İtaliya tərəfindən Deputatlar Palatasının sədr müavini E.Rosata çıxış etdi. AR-ə səfərini xatırladan italiyalı parlamentari əsas diqqəti dövlətlərarası münasibətlərin inkişafının önəminə və qanunverici hakimiyyət orqanları arasındakı əlaqələrin genişlənməsinə yönəltdi.

AR parlamentinin spikeri isə bunları vurğuladı: dövlətlərarası strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəli inkişafı; parlamentlərarası dostluq qruplarının fəaliyyəti və əməkdaşlığının dinamikası; Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına haqlı,zəfərli hərblə sonqoyma; erməni terrorçularının hələ də davam edən təxrübatları; Ermənistanın 30 illik işğalının ölkəmizə vurduğu irimiqyaslı maddi və mənəvi zərər; işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işlərinə verilən rəvac.

İtaliya parlamentinin rəhbərliyi və onun uyğun strukturları azərbaycanlı həmkarlarının səfərlərini qarşılıqlı olaraq cavablandırdılar. Belə ki, İtaliya – Azərbaycan Dostluq Qrupunun 10 üzvündən ibarət heyət 2011-ci ilin oktyabrında AR-ə səfərə gəldi. Ona qrupun rəhbəri R.Boldi başçılıq edirdi. Təmsilçilik AR Prezidenti İlham Əliyev, O.Əsədov və b. tərəfindən qəbul olundu.

Tərəflərin birgə səyləri əsasında 2018 – ci ilin oktyabr ayında Senatın sədri xanım M.Kasellatinin Azərbaycana rəsmi səfəri reallaşdırıldı. Həmin səfər (5):

• İR Senatı sədrinin AR-ə, ümumiyyətlə, ilk rəsmi gəlişidir;

• müəyyən qədər gecikmiş diplomatik akt – tədbir kimi də səciyyələndirilə bilər;

• Senat sədrinin Azərbaycanın qanunverici və icra hakimiyyətləri orqanlarının ən ali vəzifəli rəsmiləri ilə keçirilən çoxlu görüşləri üzündən də faydalı sayılmalıdır;

• M.Kasellatinin Azərbaycan Dillər universitetində düzənlənən elmi seminarın açılışındakı nitqi ilə də maraq doğurmuşdur. (Sözgəlişi, xanım sədr Azərbaycanla İtaliya arasındakı çoxşaxəli münasibətlərin inkişafına verdiyi töhfələrinə görə həmin universitetin fəxri doktoru ünvanına layiq bilinmişdir).

Müəyyən məqamlarına görə diqqəti cəlb edən daha bir səfərə nəzər salaq. Belə ki, 2019-cu ilin martında ATƏT Parlament Assambleyası yanında İtaliya nümayəndə heyəti (rəhbəri P.Qrimoldi) AR-də səfərdə oldu. Heyətlə AR MM-in məlum İşçi Qrupu arasındakı görüş – danışıqlarda bu kimi vacib məsələlərə, məqamlara toxunuldu (3):

İki xalq arasındakı tarixi çoxşaxəli əlaqələr; İlham Əliyevlə İR Prezidenti S.Mattarellanın qarşılıqlı səfərlərinin danılmaz önəmi; işçi və dostluq qrupları çərçivəsində əməkdaşlığın potensialı, imkanları; İtaliyanın Ermənistan – Azərbaycan münaqişəsinin həlli ilə bağlı tutduğu ədalətli mövqe və s. (Yeri gəlmişkən AZƏRTAC-ın 2020-ci il 29 sentyabr tarixli məlumatından da bəlli olduğu kimi, AR MM İşçi Qrupunun rəhbəri A.Kərimli dost dövlətin ali qanunverici orqanındakı İtaliya – Azərbaycan Dostluq Assosiasiyası və parlamentlərarası Dostluq Qrupunun sədrləri, senatorlar xanım R.Boldi ilə S.Lucidiyə, habelə Senatın başqa üzvlərindən C.Ferrara, M.Rizzotti və M.Marinoya təşəkkür məktubları (7) göndərmişdi).

Həmin məktublarda önə çəkilən məqamlar bunlar idi: Ermənistanın Azərbaycana hərbi təcavüzü və davamlı təxribatları ilə bağlı ədalətli mövqeyinə görə İtaliyaya minnətdarlıq; bu cür obyektiv yanaşma beynəlxalq hörmətin əyani nümunəsidir; beynəlxalq ictimaiyyətin də eyni, yəni İtaliya mövqeyindən çıxış edəcəyinə inam və s.

Yüksək vəzifəli italyan parlamentarilərin AR -ə digər bir səfəri 2019-cu ilin oktyabrında oldu. Belə ki, Senatın Xarici Əlaqələr daimi komissiyasının sədri, senator V.Petroçelli Bakıda O.Əsədovla, MM-in Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin rəhbəri S.Seyidovla və AR-İR parlamentlərarası İşçi Qrupunun üzvləri ilə faydalı fikir mübadiləsi etdi.

Burada çox önəmli bir məsələdən də bəhs etmək lazım gəlir. Belə ki, AZƏRTAC-ın 2021-ci il 6 fevral tarixli məlumatında da vurğulandığı kimi, AR-in 44 günlük ədalətli və qalibiyyətli Vətən müharibəsindən həmən sonra ölkəmizə ilk səfər edən Avropa nümayəndə heyəti məhz İtaliya Deputatlar Palatasının təmsilçiliyi olmuşdur. Bu çərçivədə daha bir örnək səfər: Deputatlar Palatasının sədrinin müavini E.Rosatonun başçılıq etdiyi həmin təmsilçilik heyəti Ağdam şəhərinə və Ermənistanın raketlərlə hücumuna məruz qalan Gəncə şəhərinə də getmişdi (6).

2021-ci ilin aprel ayında Bakıda AR MM-in məlum İşçi Qrupu İtaliya parlamentarilərinin nümayəndə heyəti ilə müzakirələr apardı. Heyətə Senatın daimi komissiya sədri V.Petroçelli başçılıq edirdi (Bu onun deputat qismində AR-ə 4-cü səfəri idi). Heyət və qrup üzvlərinin fikir mübadiləsi, əsasən, aşağıdakı önəmli məsələlər ətrafında getdi:

• səfərin əsas məramı - əməkdaşlığın genişləndirilmə perspektivi;

• imzalanan sənədlərin önəmi;

• AR- in işğaldan azad edilən ərazilərinin bərpası və Qarabağda aparılan iqtisadi mədəni quruculuqla İtaliyanın müvafiq qurumları, şirkətləri və s. çoxtərəfli iştirakı;

• Bakı – Matera şəhərlərinin əlaqələrinin artma zərurəti və s.

Daimi komitələrin (komissiyaların) və işçi, dostluq qruplarının fəaliyyəti. AR ilə İR-in qanunverici hakimiyyətlərinin əlaqələrində qazanılan təcrübənin önəmli və təqdirolunası bir sahəsi də sadalanan qurumların işi ilə sıx əlaqədardır. Belə bir vacib məqam respublikaların parlamentlərinin işbirliyində də yetərincə və hərtərəfli nəzərə alınır. Bizcə, belə strukturlar bir çox yönlərdən mühüm əhəmiyyətə malikdirlər.

Komitələr/komissiyalar - işçi, dostluq qrupları parlamentlərarası əlaqələrin yönləndirilməsi, konkret hədəflərin müəyyənləşdirilməsi, deputatların çoxşahəli təmaslarının genişləndirilməsi və s .

məsələlərlə bağlı xeyli sayda işlər görürlər. (Onların bir qismi barədə - qarşılıqlı səfərlərlə: görüşlər və müzakirələrlə əlaqədar olaraq az öncə bəhs edilmişdir).

Komissiyalar/komitələr - qrupların təşkili, tərkibi və s. ilə bağlı aşağıdakıları qeyd etmək olar:

a) AR MM-də Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi, həmçinin başqa – bu və ya digər dərəcədə əlaqədar – strukturlar mövcuddur. Azərbaycanın ali qanunvericilik hakimiyyəti orqanındakı Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupu:

• 1997-ci ilin martında yaradılmışdır (3; 4);

• İlk başçısı tanınmış aktrisa Ş.Məmmədova (3;4) olmuşdur və indiki rəhbəri isə A.Kərimlidir (7; 9; 10);

- 32 deputatdan ibarətdir (3;4).

b) İtaliya parlamentində Senatın Xarici Əlaqələr və b. müvafiq daimi komissiyaları vardır. İR parlamentində Azərbaycanın Dostları Qrupu (5):

• 2010-cu ilin əvvəlində Parlamentlərarası İttifaq müstəvisində təşkil olunmuşdur;

• Bir müddət nüfuzlu senator, R.Boldinin rəhbərliyi altında çalışmışdır (9);

• Senat üzrə dostluq qrupunun üzvlərinin sayı 32-dir (14,s.2).

Beynəlxalq və regional təşkilatlarda – parlament assambleyalarında əlaqələr. AR – İR parlamentlərarası əlaqələrinin aparıcı istiqamətlərindən birini də beynəlxalq, regional təşkilatlarda, xüsusilə də, onların parlament assambleyalarındakı çoxşaxəli təmaslar təşkil edir. Həmin təmaslarla bağlı burada belə bir qruplaşdırma və sistemləşdirmə də aparmaq mümkündür:

1. ATƏM/ATƏT -in Minsk Konfransı və Minsk Qrupu müstəvisində (M.Rafaellinin cəhdləri, "Roma cədvəli" (12, s.125-126) və sonrakı bir sıra addımlarla) Ermənistan – Azərbaycan münaqişəsinin ədalətli həllinə dair səylər prosesindəki diplomat – parlamentari uzlaşmaları.
2. Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq", Avropa İttifaqının "Yaxın Qonşular" və "Şərq Tərəfdaşlığı", Avropa Şurasının "Reddeman məruzəsi" kimi və digər proqram – layihə - təşəbbüslərə (12, s.41-42; 83-84; 64) qatılmasında hər iki dövlətin parlamentari və diplomatlarının sıxlaşan əlaqələri.
3. İtaliya parlamentinin AR-in beynəlxalq birliyə, ilk növbədə də, Avroatlantika məkanına inteqrasiya ilə bağlı fəallığı. Bunu Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı yüksək vəzifəli parlamentarilər ilə keçirilən görüşlər və aparılan müzakirələr də təsdiqləyir. Belə ki, onun Deputatlar Palatasının sədri L.Violante ilə danışıqlarında İR -in AR-ə belə bir "təkliflər paketi" açıqlandı: Azərbaycanın İtaliya parlamentinin Qafqaz Qrupu və Avropa Təşəbbüs Mərkəzi ilə əməkdaşlığa dəvəti (13, s.73). İR -in bu işdə bir vəsilə olmasını da nəzərdə tutan təkliflər AR rəhbərliyi tərəfindən müsbət qarşılandı. Həm L.Violante, həm də senatın sədri N.Mancino ilə keçirilən görüş – fikir mübadiləsində Azərbaycan tərəfi parlamentlərarası əlaqələrin qurulması və gücləndirilməsi məsələlərini önə çəkdi (1).

Heydər Əliyevin AR - İR parlamentlərarası əlaqələrinə və onların beynəlxalq təşkilatlardakı işbirliyinə dair baxışı, mövqeyi Prezident İlham Əliyevlə Birinci Vitse – prezident Mehriban Əliyevanın bu yöndəki fəaliyətində rəhbər tutulur. Bunu təsdiqləyən çoxlu proses, hadisə, fakt və s. mövcuddur (2; 5; 8; 11). Onların İtaliyaya çoxlu səfərləri ərzində İR -in ali səviyyəli parlament rəsmiləri ilə çoxsaylı görüşlərə və müzakirələrə mühüm yer ayırmaları qarşılıqlı faydalı əməkdaşlığa dair təcrübənin bir sahəsi kimi müsbət dəyərləndirilə bilər.

Bu vacib məqam İR qanunverici hakimiyyətinin rəhbər orqanlarının başçılarının və digər çoxlu parlamentari heyətlərinin AR-ə səfərləri ilə əlaqədar olaraq da mütləq nəzərə alınmalı və yüksək qiymətləndirilməlidir. Çünki nəticə etibarı ilə, AR-in İR-dəki sabiq səfiri M.Əhmədzadənin də vurğuladığı kimi, dövlətlərarası, o cümlədən də, parlament nümayəndə heyətləri tərəfindən qarşılıqlı səfərlər dinamik səciyyə daşıyır.

Bütövlükdə isə, AR ilə İR beynəlxalq təşkilatlarda və onların parlament assambleyalarında müvəffəq olunan sıx, səmərəli əməkdaşlıqda çox maraqlıdırlar. Bu da, öz növbəsində, təbii olaraq, daha məhsuldar işbirliyi perspektivini vəd edir.

Nəticə. Yekun qənaətlər – tezislər. Problemin elmi tədqiqatından müəyyən diqqətçəkici qənaətlər də irəli gəlir. Onları ifadə edən tezislər:

1. AR ilə İR parlamentlərinin kəsişən maraqlar və mövqelər bolluğu:

• Ermənistanın Azərbaycana hərbi təcavüzünə qəti hüquqi/qanuni – siyasi/ diplomatik son;

• Azərbaycanın Avroatlantikaya ardıcıl və səmərəli inteqrasiyası;

• İtaliyanın (Avropanın) davamlı enerji təhlükəsizliyinin etibarlı Azərbaycan dəstəyinə hüquqi-qanuni təminat.

2.Parlamentlərarası əlaqələrə dair qazanılan və bunlarla səciyyələnən faydalı – təqdir olunası təcrübə:

• tarixi qanunvericilik – parlamentçilik ənənələri və irsinə sadiqlik;

• möhkəm təməlli siyasi – iqtisadi – humanitar/mədəni əməkdaşlığa istinad;

• parlamentlərin ali vəzifəli rəsmilərinin qarşılıqlı səfərləri kimi yüksək nəticəli birgə fəaliyyət üsulu;

• respublikaların ali qanunvericilik hakimiyyətlərinin müvafiq komitələrinin (komissiyalarının) və işçi, dostluq qruplarının görüşləri, müzakirələri, habelə deputatların ictimai – şəxsi təmasları sistemi və s.

3.Beynəlxalq və regional təşkilatlarda, ələlxüsus da, onların parlementlərarası məclislərində siyasi – diplomatik müstəvilərdə yararlı uzlaşma:

• AR-in Avropa strukturlarının fəaliyyətində - proqram, layihə və s. iştirakında – həm də bir İtaliya vəsiləsi. (Bunu S.Mattarellanın 2020-ci ilin fevralında İlham Əliyevlə birlikdə mətbuata etdikləri bəyanatlarda açıqladığı sanballı və dəyərli müddəalar da təsdiqləyir: Azərbaycan Respublikası – Avropa İttifaqı əlaqələrinə dəstək və stimul olmaq sahəsində geniş formada əməkdaşlığa hazırolma; AR-i İtaliya Avroatlantika tərəfdaşlığı üzrə İtaliyanın ən başlıca tərəfdaşı sayma (2);

• AR MM-in fəaliyyətində İtaliyanın Avropa İttifaqına inteqrasiyası təcrübəsindən faydalanma;

• ATƏT – in Minsk Qrupunun "fəaliyyəti" nin nəticəsizliyindən irəli gələn nəticəyə, yəni AR-in 44 günlük zəfərli Vətən müharibəsinə obyektiv yanaşma;

• parlamentlərarası assambleyalarda həmrəyliyin və həmmövqeliliyin əlverişli perspektivi və s.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İtaliyaya rəsmi səfəri (25-27 sentyabr 1997-ci il). - https://lib.aliyev-heritage.org/az/78026731.html [17.05.2023].
2. Azərbaycan – İtaliya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. - https://president.az/az/articles/view/35883 [14.05.2023].
3. Azərbaycan Respublikasının Milli Məclisi. Azərbaycan–İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu. - https://meclis.gov.az/news-bey.php?id=45&lang=az&cat=109 [24.06.2023].
4. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında AR MM-in 7 mart 1997-ci il tarixli, 256 – I QR saylı qərarı. - https://e-qanun.az/framework/16244 [26.05.2023].
5. Azərbaycan – İtaliya ikitərəfli münasibətləri. Qısa məlumat. Azərbaycan Respublikasının İtaliyadakı səfirliyi. Rəsmi saytı. – https://rome.mfa.gov.az/az/content/86/azerbaycan-italiya [11.06.2023].
6. Azərbaycan – İtaliya strateji tərəfdaşlığı daha da möhkəmlənir. AZƏRTAC, Bakı: 06.02.2021. - https://azertag.az/print/1706403 [17.05.2023].
7. Azər Kərimli İtaliya Parlamentinin üzvlərinə təşəkkür məktubları ünvanladı. - Azerforum.com/az/azer-kerimli-italiya-parlamentinin-uzvlerine-tesekkur-mektublari-unvanladi [11.06.2023].
8. İlham Əliyev Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib. - president.az/az/articles/view/57095 [26.05.2023].
9. İtaliya Respublikasının Azərbaycandakı səfirliyinin rəsmi saytı. Azərbaycan – İtaliya əlaqələri. - oneclick.az/company/embassy-italy-in-azerbaijan [14.05.2023].

10. Kərimli, A. Azərbaycan – İtaliya münasibətləri inkişaf edəcək. - modern.az/az/news|311918/azerbaycan-italiya-munasibetleri-inkisaf-edəcək [26.05.2023].
11. Mehriban Əliyeva. İtaliyaya səfər. İtaliya Senatının sədri ilə görüş. - mehriban-aliyeva.az/activities/node/847486 [26.05.2023].
12. Musa, İ.M. Azərbaycanın xarici siyasəti. Üç hissədə, 3-cü hissə: Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 776 s.
13. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991 – 2003): 2 hissədə, II hissə. - Bakı: Mütərcim, 2015, 664 s.
14. Təvəkküloğlu, A. Azərbaycan – İtaliya əlaqələri daha da möhkəmlənir. /"Azərbaycan" qəz., Bakı: 2010, 7 may. - anl.az/down/meqale/azerbaycan/2010/may/118285.html [14.05.2023].

ОРХАН МУСА
Докторант кафедры «Международные отношения» Азербайджанского Университета Туризма и Менеджмента

РЕСПУБЛИКА АЗЕРБАЙДЖАН – РЕСПУБЛИКА ИТАЛИЯ: МЕЖПАРЛАМЕНТСКИЕ СВЯЗИ – ИНТЕРЕСЫ, ОПЫТ, РЕЗУЛЬТАТ

В статье исследуются некоторые проблемы межпарламентских связей Республики Азербайджан с Республикой Италия. Научное исследование охватывает анализа и обобщения таких важных вопросов: факторы необходимости связей между парламентами двух государств, сотрудничество в парламентских ассамблеях международных – региональных организаций, согласованная деятельность постоянных комитетов/комиссий и рабочих, дружеских групп. В конце работы своего отражения нашли также результаты исследования.

Ключевые слова: Азербайджан, Италия, Милли Меджлис, Сенат, Палата Депутатов, Г.Алиев, И.Алиев, О.Асадов, М.Каселлати, межпарламентские связи, рабочие – дружеские группы, опыт, результат.

ORKHAN MUSA
Doctoral student of the "International relations" department of Azerbaijan Tourism and Management University

REPUBLIC OF AZERBAIJAN - REPUBLIC OF ITALY: INTERPARLIAMENTARY RELATIONS - INTERESTS, EXPERIENCE, RESULT

A number of problems of inter-parliamentary relations between the Republic of Azerbaijan and the Republic of Italy was examined in the article. Scientific research covers the analysis and summarization of the factors determining the necessity of the relations between the parliaments of the two states, the cooperation in the parliamentary assemblies of the international and regional organizations, the coordinated activity of the relevant permanent commissions - committees and working - friendship groups. The reached conclusions as a result of the research were also expressed in the study.

Keywords: Azerbaijan, Italy, Parliament, Senate, Chamber of Deputies, H. Aliyev, I. Aliyev, O.Asadov, M.Casellati, inter-parliamentary relations, worker-friendly groups, experience, result.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyul 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Sevinc Yusifzadə.